AZƏRİNŞAAT

“Azərinşaatservis” MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# “Azərinşaatservis” MMC “Minilliyin Çağırışı-Gürcüstan” fondu ilə müqavilə bağladı

*“Azərinşaatservis” MMC*
*Bakı, Azərbaycan*
*2009/04/22*

22 Aprel 2009-cu il tarixində Gürcüstanın paytaxtı Tbilisi şəhərində “Azərinşaatservis” MMC ilə “Minilliyin çağırışı – Gürcüstan” Fondu arasında “Sulda-Kartsaxi-Türkiyə sərhədi avtomobil yolunun 16 km hissəsinin rehabilitasiyası layihəsi”nin icrası üçün müqavilə imzalandı.

Azərbaycan şirkəti olan “Azərinşaatservis” MMC artıq 6 ilə yaxındır ki fəaliyyət göstərir və əsasən avtomobil və dəmir yolları tikintisi ilə məşğuldur. Bu mqavilə ilə Şirkət artıq Gürcüstan ərazisində ikinci layihənin icrasına başlamış olacaq. Belə ki, Şirkət Bakı-Tbilisi-Qars dəmryolu layihəsi” çərçivəsində “Axalkalaki-Karsaxi-Türkiyə sərhədi dəmiryolunun yenidənqurulması layihəsi”ni də icra etməkdədir.

“Minilliyin çağırışı – Gürcüstan” Fondu Gürcüstan Respublikasının Minilliyin Çağırışı Programına qoşulmasından sonra 2006-cı ildə qurulub və fond Gürcüstanda bu proqram çərçivəsində layihələrin həyata keçirilməsi ilə məşğuldur.

“Samtsxe-Cavaxetiya avtomobil yolunun rehabilitasiyası layihəsi” çərçivəsində həyata keçiriləcək olan bu layihənin dəyəri müqaviləyə əsasən 8 437 383,60 ABŞ dollarıdır. Layihəni maliyyələşdirən isə Minilliyin Çağırışı Korporasiyasıdır. Bu çərçivədə nəzərdə tutulan layihələrin həyata keçirilməsiylə Samtskhe-Cavakhetiya və Kvemo Kartli bölgələri ilə Gürcüstanın digər bölgələri arasındakı əlaqəni yaxşılaşdırmaq və nəticədə yerli əhalinin sosial, siyasi və iqtisadi inteqrasiysını sürətləndirmək nəzərdə tutulur.

“Azərinşaatservis” MMC adından müqaviləni imzalayan, Mərkəzi Texniki Departamentin Direktoru Barış Altıpatmak: “Layihənin icrasına Mayın əvvəllərində başlayacıq. Bütün işləri 18 aya yekunlaşdıraraq 2010-ci ilin sonlarına doğru avtomobil yolunu təhvil verəcik.” dedi.

*2003-cü ildə qurulan “Azərinşaatservis” MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmir yolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 2082087, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**